*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2024*
*Səh. 383-390*
https://doi.org/10.62837/2024.8.383

**BAHAR ƏLİYEVA**
**ADPU-nun nəzdində Azərbaycan**
**Dövlət Pedaqoji Kolleci**
**(İnşaatçılar prospekti 45)**
**baharalieva2017@gmail.com**

# AZƏRBAYCAN UŞAQ ƏDƏBİYYATININ İNKİŞAFINDA ABBASQULU AĞA BAKIXANOV YARADICILIĞININ ROLU

## XÜLASƏ

A.Bakıxanovun uşaq əsərləri gənc nəslin mənəvi-estetik tərbiyəsi, onların düşüncəli, yaradıcı, həssas insan kimi formalaşması baxımından geniş imkanlar açır. Ədibin uşaq əsərləri mövzu, ideya baxımından rəngarəngdir. Həmin əsərlərdə mühüm mənəvi problemlərə toxunulmuş, həyatın müxtəlif sahələri, cəmiyyətdə baş verən hadisələr, insan münasibətləri öz əksini tapmışdır.

Ədibin uşaq əsərlərində kiçik yaşlı oxucuların yaş və bilik səviyyələri nəzərə alınmış, pedaqoji tələblər gözlənilmişdir. A. Bakıxanov həmin əsərlərdə mənəvi tərbiyə ilə bağlı qabaqcıl ideyalarını, mütərəqqi fikirlərini uşağın anlaya biləcəyi bir tərzdə ifadə etmişdir.

A.Bakıxanov əsərlərində uşaqların əmək tərbiyəsi, elmə, biliyə yiyələnməsi, davranış mədəniyyəti, ailədə, cəmiyyətdə başqaları ilə rəftar qaydaları, düzlük, sadəlik, təvazökarlıq, insanpərvərlik, xeyirxahlıq, kindən, riyakarlıqdan uzaq olmaq haqqında çox dəyərli fikirlər söyləmişdir.

A. Bakıxanovun mənzum hekayələri, nəsihətləri, təmsilləri, şeirləri Azərbaycan uşaq ədəbiyyatının qiymətli inciləridir. Bu əsərlər uşaq fikrini cilalayır, onlarda humanist hisslər, mənəvi saflıq, müstəqillik, dözümlülük, iradə, mübarizlik keyfiyyətləri formalaşdırır.

A.Bakıxanovun uşaq əsərləri sənətkarlıq baxımından da kamil sənət nümunələridir. Ədibin uşaq əsərləri mövzu, məzmun, üslub baxımından sadə, aydın, anlaşıqlıdır. Bu əsərlərdə uşaq qavraması, psixologiyası nəzərə alınmışdır. Sənətkar öz uşaq əsərlərində uzun təsvirlərdən, sözçülükdən qaçmış, bədiiliyə, məna tutumuna xüsusi diqqət yetirmişdir.

**Açar sözlər:** ədəbiyyat, hekayə, mövzu, əsər, ideya, yaradıcılıq, klassik, tərbiyə əxlaq

Məlumdur ki, uşaq ədəbiyyatının hər tarixi mərhələdə inkişaf meyllərini hərtərəfli tədqiq etməklə söz sənətinin müstəqil sahəsi kimi bu ədəbiyyatın xüsusiyyətlərini, görkəmli sənətkarların ədəbiyyatın inkişafında rolunu müəyyənləşdirmək, müasir mərhələdə uşaq ədəbiyyatının tədqiqi üçün möhkəm

zəmin yaratmaq olar. Klassik uşaq ədəbiyyatının tədqiqi və öyrənilməsinin elmi-nəzəri əhəmiyyəti məhz bununla şərtlənir.

Klassik uşaq ədəbiyyatının tədqiqi keçmişdə yaradılmış əsərlərin seçilməsi və qiymətləndirilməsi meyarlarını müəyyənləşdirməyə, ideya- estetik və mənəvi tərbiyə baxımından ən dəyərli nümunələri üzə çıxarmağa kömək edəcəkdir. Yüksək bədii sənətkarlıq nümunəsi olan, böyük tərbiyəvi əhəmiyyət kəsb edən, yaşadığımız dövrlə səsləşən əsərlər gənc nəslin mütaliə dairəsinə daxil olmalı, klassik bədii irsdən müasir vəzifələrin yerinə yetirilməsində məqsədyönlü şəkildə istifadə olunmalıdır.Bu baxımdan XIX əsr uşaq ədəbiyyatımızın yaranmasında və təşəkkülündə mühüm rol oynamış sənətkarların yaradıcılığının tədqiqi çox əhəmiyyətlidir.

XIX əsrdə xalqımızın Abbasqulu ağa Bakıxanov, Mirzə Şəfi Vazeh, İsmayıl bəy Qutqaşınlı, Qasım bəy Zakir, Mirzə Fətəli Axundzadə, Həsən bəy Zərdabi, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov kimi görkəmli ziyalıları, ədəbiyyat xadimləri yaşayıb yaratmışlar. Bu qüdrətli sənətkarlar öz əsərlərində xalqın mənafeyini müdafiə etmiş, həyatı, onun ziddiyyətlərini, müasirlik meyllərini, azadlıq ideallarını əks etdirmişdir. Onların əsərləri dərin ictimai məna kəsb etmiş, onların sayəsində ədəbiyyatımızda bədii yaradıcılığın ictimai mahiyyəti güclənmişdir.

XIX əsrin əvvəlləri realist ədəbi cərəyanın ilk rüşeymləri qoyulur. A.Bakıxanov, İ.Qutqaşınlı, M.Ş.Vazehin yaradıcılığı ilə ədəbiyyatımızda realist – maarifçi ədəbiyyatın nümunələri yaranır. A.Bakıxanovun bədii irsində uşaqların mütaliəsinə daxil olan söz sənəti nümunələri mühüm yer tutur. O, uşaqlara ünvanlanmış əsərlərin özəlliyini gənc nəslə müraciətində, hər şeyin gənc oxucuya aydın olmasında, onları əhatə edən həyatın mahiyyətini tədricən açmaq bacarığında görürdü. Bu mənada A Bakıxanov uşaq ədəbiyyatına yeniliklər gətirən qüdrətli sənətkardır.

A.Bakıxanov xalqımızın böyük mütəfəkkir alimi və yazıçısıdır. Onun elmi-ədəbi irsi zəngin, rəngarəng, çoxcəhətlidir. Xalqımızın ictimai, mədəni fikir tarixində böyük yer tutan A.Bakıxanov ədəbiyyatımızda maarifçiliyin əsas nümayəndəsi sayılır. XIX əsrin birinci yarısında yeni maarifçi-realist ədəbi cərəyanını yaranması ilk növbədə bu böyük sənətkarın adı ilə bağlıdır.

Azərbaycan ədəbiyyatında maarifçi realizmin ilk nümayəndələrindən olan A. Bakıxanovun uşaq ədəbiyyatının inkişafında rolunu yüksək qiymətləndirən Feyzulla Qasımzadə yazırdı ki, A. Bakıxanovun bundan qabaq yazdığı «Təbriz əhlinə xitab» satirasında, «Kitabi-Əsgəriyyə» hekayəsində ibtidai rüşeym halında olan realizm bu əsərdə nisbətən inkişaf etmiş şəkildə meydana çıxır.

Həmin əsərdəki məsələlər burada müəyyən həyat hadisələrində və bədii surətlərdə canlandırılır. Məsələn, “Tülkü və qurd” təmsilində tülkü surətində hiyləgərliyin, “Çinar və küdü tağı” təmsilində böyüyə hörmətsizliyin və yersiz lovğalanmağın, “Hind nağılı”nda başqasına quyu qazmağın və xudpəsəndliyin tənqidi verilir.

Əxlaqi nəsihətlərin ifadəsini verən bu parçalarda müəllif insanı maddi – dünyəvi ehtiraslardan uzaqlaşmağa, zəhməti sevməyə, xeyirxahlığa, yaxşılığa, bayağı sözdən

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2024*
*Səh. 383-390*
çəkinməyə, hər bir işdə ağılı rəhbər tutmağa çağırır. Mənalı, hikmətamiz sözlər, əxlaqi nəsihətlər bu əsərin ideya-məzmununu təşkil edir.

A. Bakıxanov öz təmsil və hekayələrində nəticə çıxardığı zaman həmişə belə atalar sözlərindən, xalq zərb-məsəllərindən, böyük klassiklərin əsərlərindən və bəzən də öz aforizmlərindən istifadə edərək, şerin mənasını dərinləşdirir.[1]

A.Bakıxanovun uşaq əsərləri gənc nəslin mənəvi-estetik tərbiyəsi, onların düşüncəli, yaradıcı, həssas insan kimi formalaşması baxımından geniş imkanlar açır. Ədibin uşaq əsərləri mövzu, ideya baxımından rəngarəngdir. Həmin əsərlərdə mühüm mənəvi problemlərə toxunulmuş, həyatın müxtəlif sahələri, cəmiyyətdə baş verən hadisələr, insan münasibətləri öz əksini tapmışdır.

Ədibin uşaq əsərlərində məktəb yaşlı oxucuların yaş və bilik səviyyələri nəzərə alınmış, pedaqoji tələblər gözlənilmişdir. A. Bakıxanov həmin əsərlərdə mənəvi tərbiyə ilə bağlı qabaqcıl ideyalarını, mütərəqqi fikirlərini uşağın anlaya biləcəyi bir tərzdə ifadə etmişdir.

Ədib uşaqların əmək tərbiyəsi, elmə, biliyə yiyələnmək, fərasətli, gözüaçıq olmaq, davranış mədəniyyəti, ailədə, cəmiyyətdə başqaları ilə rəftar qaydaları, böyüyə, kiçiyə münasibət, düzlük, sadəlik, təvazökarlıq, halallığa tapınmaq, kindən, riyakarlıqdan uzaq olmaq, insanpərvərlik, xeyirxahlıq haqqında çox dəyərli fikirlər söyləmişdir.

Sənətkarın uşaq əsərlərini mövzu, janr baxımından aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Nəsihətlər
2. Mənzum hekayələr
3. Təmsillər

Ədəbiyyat tariximizdə nəzmlə nəsihətlər yazmış sələflərindən fərqli olaraq, A.Bakıxanov "Nəsihətnamə" kitabında toplanmış nəsihətlərini nəsr formasında qələmə almış, bir növ gənc nəsil üçün zəruri saydığı mənəvi dəyərlərin toplusunu hazırlamışdır. İnsanın mənəvi dəyərlərini, davranış mədəniyyətini əks etdirən bu nəsəhətlər mövzu, problem baxımından müxtəlifdir. Həmin əsərlər neçə – neçə nəslin mənəvi-estetik tərbiyəsində, milli və ümumbəşəri dəyərlərə yiyələnməsində əvəzsiz rol oynamışdır və oynamaqdadır.

---

A.Bakıxanovun nəsəhətlərində öz əksini tapan həyat həqiqətləri, ibrətamiz fikirlər gənc oxucunun hisslərinə təsir edir, onu düşünməyə sövq edir. Bu nəsihətlərin məzmun dolğunluğu, bədii ifadə sənətkarlığı gənc oxucunun oradakı fikirlərdən məqsədyönlü şəkildə bəhrələnməsinə imkan verir.

Gənc nəslə elm və kamal əldə etməyi hər şeydən əziz tutmağı tövsiyə edən ədib yazırdı: « Mən nə qədər axtardımsa uşaqların təlimi üçün elə bir kitab tapa bilmədim

[1] Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı tariixi. Bakı:Maarif, 1974, s.160..

ki, o, asan və anlaşılan bir dil ilə onların əxlaqının gözəlliyinə dəlalət etsin. Bəzi işlənməkdə olan kitablar o qədər qarışıq – dolaşıq ibarələrlə yazılmışdır ki, müəllimlərin özləri onları dərk edə bilmirlər. Bəzi kitablar isə o qədər uzun və pərakəndədir ki, onları anlamaq çox çətindir. Belə kitablarda « Uşaqlıqda öyrənilən elm daşa qazılmış şəkil kimidir » zərbül-məsəlinin məzmunundan qəflət olunur. Uşaq yaşlarında hər zamandan daha artıq əxlaq gözəlliklərini onlara öyrətmək lazımdır. Pis xüsusiyyətlər təkrar olunduğu zaman adətə çevrilib. Uşaq təbiətinə daxil olduqdan sonra onlara elm və ədəb öyrətmək müşkül olar. »[2]

Yazıçının əsərləri uşaqlar üçün ibrətamizdir, çünki uşaqlar bu əsərlərdə zaman və məkan haqqında, insanın təbiətlə, dünya ilə əlaqəsi haqqında təsəvvürlər formalaşdırılır. Ədibin əsərləri uşağa cəsarət və əzmkarlıqla yaşamağa, həyatda xeyir və şəri görməyə imkan verir. Eyni zamanda uşaqlarda düzgün şifahi nitqin inkişafında yazıçının əsərləri mühüm mənbədir. Bədii mətnlər lüğəti genişləndirir, dialoqun düzgün qurulmasına kömək edir, ardıcıl, məntiqli nitqin inkişafına təsir göstərir. Sənətkar öz əsərlərində uşağın mənəvi dəyərlərə yiyələnməsi, dünyanı həssaslıqla qavraması imkanlarını diqqət mərkəzində saxlamışdır.

Ədib ” Nəsihətlər” əsərində öz məramını açıq ifadə edərək yazırdı: “Uşaqlara üz tutub deyirəm: Ey mənim əzizim! Sən insansan. İnsan dünyada hər şeydən üstün yaranmışdır. Görmürsənmi ki, heyvanlar o boyda bədən və güc ilə insanın əlində əsirdirlər. Bu isə işi yaxşı bacarmaq səbəbindən insanlar arasında hər kəs çox bilikli və iş bilən olsa, həmişə hörmətli olar. Deməli gərək iş bilmək və yaxşılıq etmək qaydalarını o adamlardan öyrənmək lazımdır ki, onlar həyatda təcrübəli və qabiliyyətli olmuşlar. Belə adamların sözləri bizə nəsihətdir.”[3]

Ədib mənzum hekayə və təmsillərində yaşadığı cəmiyyətin ziddiyyətlərini, insan taleyinə laqeyd münasibəti, insan haqlarının mütləqiyyət quruluşu şəraitində daim tapdalanmasını, zülmü, geriliyi kəskin tənqid etmiş, həyat həqiqətlərini cəsarətlə açıb göstərmiş, ədaləti, humanizmi təbliğ etmişdir.

“Hikmətin fəziləti” mənzum hekayəsində müəllif hikməti, müdrikliyi, ağlı insan üçün fəzilət hesab edir. Yazıçının fikrincə, insan üçün hünər, yaxşılıq, həqiqət həyati zərurətdir. Eyni zamanda cəmiyyətdə müdrik insanlar, ağıllı şəxsiyyətlər qiymətləndirilməli, özünə layiq yer tutmalıdır.

“Ümidin boşa çıxması” mənzum hekayəsində hadisələr iş bilən, ağıllı, qoca bir dehqanın dili ilə nağıl edilir. Ədibin fikrincə, insanın acgözlük, tamahkarlıq etməsi, öz nəfsinə qul olması onun dərdini, sitəmini artırır. Hökmdarın verəcəyi bəxşişə ümid bəsləyən kəndlinin əzab-əziyyətə düçar olmasının təsvirində dərin rəmzi məna vardır. Müəllif bu yolla insanın öz ruzisinə qane olub halal əməklə yaşamasının daha doğru yol olması fikrini aşılayır.

---

[2] Bakıxanov A. Seçilmiş əsərləri. Bakı: Avrasiya Press. 2005.s.67.
[3] Bakıxanov A. Seçilmiş əsərləri. Bakı: Avrasiya Press. 2005.s.67.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2024*
*Səh. 383-390*

"Qarı və Harun" mənzum hekayəsində adi bir qarı hökmdardan ağıllı, müdrik insan kimi təsvir edilir. Bu yoxsul, kimsəsiz qarı öz uçuq daxmasını var-dövlətə dəyişmir, öz yurdunun, ocağının dağıdılmasına razı olmur. Əsər ibrətamiz əxlaqi nəticə ilə bitir:

Ey Qüdsi, dövlət bir pərdədir, inan,
Onunla örtülür cinayət, nöqsan.
Bir məsəl dedilər dövlətə bağlı,
Harunun nöqsanı, qarının ağlı.[4]

A. Bakıxanovun məşhur hekayələrindən olan "Hind əfsanəsi" əsərinin süjeti hind mənbələrindən götürülmüşdür. Əsərdə iki şah qarşılaşdırılır. Ədalətli Hindistan padşahının yerinə onun nadan oğlunun taxta çıxması insanlara böyük fəlakətlər gətirir. Müəllif ölkənin müqəddəratını düşünməyib günlərini kef məclislərində, ikiüzlü, yaltaq saray əyanlarının əhatəsində keçirən hökmdarı tənqid atəşinə tutur. Əsərin xain saray əyanları cəzalandırılması, zülmün aradan qalxması, ədalətin bərpa olunması ilə bitməsi də müəllifin mütərəqqi görüşlərini ifadə edir.

A.Bakıxanov klassik ədəbiyyatımızda təmsilin kamil nümunələrini yaratmış bir sənətkardır. Ədibin təmsil janrına müraciəti səbəbsiz deyildir. Məlumdur ki, təmsil epik növün janrıdır. Bu janrda yazılan əsərlərdə insana xas olan xüsusiyyətlər heyvanlar, cansız əşyalar, bitkilər üzərinə köçürülür, onlar şəxsləndirilir.

A. Bakıxanov «Qurd və ilbiz», «Yersiz iftixar», «Tülkü və qoyun», «Eşşək və bülbül» təmsillərinin müəllifidir. Məlumdur ki, məşhur rus təmsilçisi İ. A. Krılovun yaradıcılığı da A.Bakıxanovun diqqətini cəlb etmişdir. O, İ.A.Krılovun əsərlərini dilimizə tərcümə etməyə başlamışdır. Həmin əsərlərdən yalnız «Eşşək və bülbül» təmsilinin sərbəst tərcüməsi bizə gəlib çatmışdır.

Əlbəttə, cəmiyyətdəki nöqsanlara qarşı barışmaz mövqe tutan ədibin İ.A.Krılov yaradıcılığına bu diqqəti təsadüfi deyildi. Böyük rus təmsilçisinin əsərlərindəki ictimai məzmun, kəskin satiranı A.Bakıxanov yüksək qiymətləndirmişdir.

«Eşşək və bülbül» təmsilində eşşəyin xahişini qəbul edən bülbül cəh-cəh vurub oxuyur. Lakin bülbülün nəğməsini bəyənməyən eşşək ona xoruzdan dərs almağı məsləhət görür. Deyir ki, xoruzun səsi qəlbi şad edir. Eşşəyin sözlərini eşidən bülbül bu nadanlığa dözə bilməyib uçub gedir.

Əsərdə müəllif nadanlığı, cahilliyi ictimai bəla kimi tənqid edir. Cahil adamların hakimlik etməsi, nadanların ağıllı adamları qiymətləndirməsi haqsızlıq, müsibət kimi kimi qiymətləndirilir.

«Qurd və ilbiz» təmsilində lovğalıq, yersiz öyünmə, şöhrətpərəstliyin aqibəti təsvir olunur. Alma küləkdə ağacdan qopub yerə düşür, içində yuva salmış qurd bundan əvvəlcə qorxuya düşür. Sonra sağ qaldığını görüb sakitləşir, başını çölə çıxarıb ətrafa nəzər salır. Qurd öyünərək özünü qəhrəman sayır.

---

[4] Bakıxanov A. Seçilmiş əsərləri. Bakı: Avrasiya Press. 2005.s.230..

Öz yuvasına sıxılmış bir ilbizi görən qurd fəxr ilə bağırır, almanın üstünə dikəlib deyir ki, o, minarədir, yaxın gəlib kölgəsində küləkdən qorunsun. Lakin ilbiz onun kölgəsinə sığınmaq istəməyib özünün etibarlı qınına sığınır.

Birdən külək ağacdan bir alma qoparıb düz qurdun üstünə salır. Qurd xurd-xəşil olur. Hava saitləşəndə ilbiz yuvasından çıxıb qurdun başına gələni görür.

"Yersiz iftixar" təmsilində də müəllif yersiz öyünməyi insan xasiyyətindəki mənfi cəhət kimi qiymətləndirir, ağıllı adamların bu əhvalatdan ibrət almasını lazım bilir. Onun fikrincə, yersiz iftixar əvvəl-axır insanı pis vəziyyətdə qoyur, nüfuzdan salır.

"Tülkü və qoyun" təmsilində müəllif hiylə ilə görülən işin insana xeyir gətirmədiyini, gücsüzə mərhəmət göstərməyin zəruriliyini ön plana çəkir.

Qüdsi, sən işlədib də hiyləvi zür
Olma heç nəvan ilə məğrur.
Gücsüzə rəhmsizcə zülm etsən,
İntiqamı alar bir it səndən.

A.Bakıxanov uşaq əsərlərində insan xasiyyətindəki mənfi xüsusiyyətləri tənqid edir. Bu tənqid ədibin əsərlərində konret məzmun və məna kəsb edir, oxucunu fəal həyat mövqeyi tutmağa sövq edir. Ədib uşaq əsərlərində sənətkarlıq məsələlərinə xüsusi diqqət yetirmişdir. Onun əsərlərində kəskin və həyati konflikt, zəngin xalq hikməti, müdrik ifadələr öz əksini tapmışdır. A.Bakıxanov uşaq ədəbiyyatının sonrakı inkişafına güclü təsir etmişdir. Ədibin uşaq əsərləri bu gün də öz ideya- bədii dəyərini saxlamaqdadır.

## ƏDƏBİYYAT

1.A.Bakıxanov Qüdsi. Seçilmiş əsərləri. Bakı: Avrasiya Press, 2005.
2.Q.Namazov. Azərbaycan uşaq ədəbiyyatı. Bakı: Maarif, 1976.
3.A.Hacıyev, F.Fərhadov. Azərbaycan uşaq ədəbiyyatı. Bakı, ADPU,1976.
4.C.Əhmədov "Uşaq və zaman". Bakı: Yazıçı, 1986.
5.Həsənli B. Azərbaycan uşaq ədəbiyyatı. Bakı: Müəllim, 2015.
6.V.Əhməd. Azərbaycan uşaq ədəbiyyatı. Bakı, 2006.
7.R.Yusifoğlu. Uşaq ədəbiyyat., Bakı:Təhsil 2002.

**БАХАР АЛИЕВА**

## РОЛЬ ТВОРЧЕСТВА АББАСГУЛУ АГА БАКИХАНОВА В РАЗВИТИИ ДЕТСКОЙ ЛИТЕРАТУРЫ АЗЕРБАЙДЖАНА

## РЕЗЮМЕ

Детские произведения А. Бакыханова открывают широкие возможности в плане духовно-эстетического воспитания подрастающего поколения, формирования их как мыслящих, творческих, чутких людей. Детские

произведения писателя колоритны по тематике и идеям. В этих произведениях затрагивались важные духовные проблемы, отражались различные сферы жизни, события, происходящие в обществе, человеческие отношения.

В детских произведениях писателя учитывались возраст и уровень знаний юных читателей, предусматривались педагогические требования. В этих произведениях А. Бакиханов в доступной для ребенка форме выразил свои передовые идеи и прогрессивные идеи о духовном воспитании.

В своих произведениях А. Бакыханов выразил весьма ценные идеи о трудовом воспитании детей, овладении наукой и знаниями, культуре поведения, правилах обращения с окружающими в семье и обществе, честности, простоте, смирении, человечности, доброте, избегании злобы и лицемерия.

Стихотворения, советы, сказки, стихи А.Бакиханова являются драгоценными жемчужинами азербайджанской детской литературы. Эти произведения совершенствуют мышление детей, формируют в них гуманистические чувства, нравственную чистоту, самостоятельность, толерантность, волю, бойцовские качества.

Детские работы А. Бакиханова также являются прекрасными образцами искусства с точки зрения мастерства. Детские произведения Адиба просты, ясны и понятны по сюжету, содержанию и стилю. В этих работах учитывается детское восприятие и психология. В своих детских работах художник избегал длинных описаний и многословия, особое внимание уделял художественности и смыслу.

**Ключевые слова:** литература, рассказ, тема, произведение, идея, творчество, классический, развитие

**BAHAR ALIYEVA**

**THE ROLE OF ABBASGULU AGA BAKIKHANOV'S CREATIVITY IN THE DEVELOPMENT OF CHILDREN'S LITERATURE IN AZERBAIJAN**

**SUMMARY**

Children's works by A. Bakikhanov open up wide opportunities in terms of spiritual and aesthetic education of the younger generation, shaping them as thinking, creative, sensitive people. The writer's children's works are colorful in themes and ideas. These works touched upon important spiritual issues, reflected various areas of life, events taking place in society, and human relationships.

The writer's children's works took into account the age and level of knowledge of young readers and provided for pedagogical requirements. In these works, A. Bakikhanov expressed his advanced ideas and progressive ideas about spiritual education in a form accessible to children.

In his works, A. Bakikhanov expressed very valuable ideas about the labor education of children, mastery of science and knowledge, culture of behavior, rules

for treating others in the family and society, justice, simplicity, humility, humanity, kindness, avoidance of anger and hypocrisy.

Poems, advice, fairy tales, poems by A. Bakikhanov are the precious pearls of Azerbaijani children's literature. These works improve children's thinking, form in them humanistic feelings, moral purity, independence, tolerance, will, and fighting qualities.

Children's works by A. Bakikhanov are also excellent examples of art in terms of craftsmanship. Adib's children's works are simple, clear and understandable in plot, content and style. These works take into account children's perception and psychology. In his children's works, the artist avoided long descriptions and verbosity and paid special attention to artistry and meaning.

**Keywords:** literature, story, theme, work, idea, creativity, classic, development

**Rəyçi: pedaqogika üzrə fəlsəfə doktoru, dosent Bilal Həsənli tərəfindən çapa tövsiyə olunmuşdur.**